# Azərbaycan və Mərakeş arasında münasibətlərlə bağlı fikir mübadiləsi aparılıb

**Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Respublikasına işgüzar səfəri çərçivəsində Mərakeş Krallığı Müşavirlər Palatasının Sədri Sidi Mohamed Ould Ər-Rəşid ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərlə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan və Mərakeş arasında münasibətlərin qarşılıqlı hörmətə əsaslandığı qeyd olunaraq, xüsusilə, siyasi sahədə əlaqələrin inkişaf etdiyi diqqətə çatdırılıb. Bildirilib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir, müxtəlif platformalarda bir-birinə qarşılıqlı dəstək göstərir.

Söhbət zamanı qarşılıqlı səfərlərin münasibətlərin genişlənməsində rolu vurğulanaraq, bu səfərlərin xalqlarımız arasında da əlaqələrin dərinləşməsinə töhfə verdiyi ifadə edilib.

Görüşdə ölkələrimiz arasında münasibətlərin dərinləşməsində parlamentlərin əməkdaşlığının mühüm rola malik olduğu qeyd edilib. Milli Məclisin Sədri Sahibə Qafarova özünün Mərakeşə rəsmi səfərini məmnunluqla xatırlayaraq, bu kimi təmasların münasibətlərimizə töhfə verdiyini bildirib. Tərəflər deputatlar, parlament komitələri arasında əməkdaşlığın genişləndirilməsi imkanları haqqında fikirlərini ifadə ediblər.

Spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi haqqında geniş məlumat verərək, ölkəmizin sədrliyi ilə bu təşkilatın institusional əsaslarının gücləndirilməsi istiqamətində atılan addımları diqqətə çatdırıb.

Müşavirlər Palatasının Sədri Sidi Mohamed Ər-Rəşid ölkəsinin Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığa önəm verdiyini qeyd edərək, bu kimi platformaların beynəlxalq məsələlərin həllinə töhfələrini təqdir edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

Azərbaycan .-2025.- 8 aprel (№ 67).- S.4.